## *MƏKTƏB VƏ PEDAQOJİ FİKİR TARİXİ*

UOT 37.

***İradə Böyükağa qızı Əmirəliyeva***
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun aparıcı elmi işçisi*

# PROFESSOR ZAHİD QARALOV TƏRBİYƏNİN AKTUAL PROBLEMLƏRİ HAQQINDA

***Ирада Беюкага гызы Амиралиева***
*доктор философии по педагогике, ведущий научный сотрудник*
*Института Образования Азербайджанской Республики*

# ПРОФЕССОР ЗАХИД ГАРАЛОВ ОБ АКТУАЛЬНЫХ ПРОБЛЕМАХ ВОСПИТАНИЯ

***Irada Boyukaga Amiraliyeva***
*PhD in Pedagogy*
*leading researcher of İnstitute of Education of the Rupublic of Azerbaijan*

# PROFESSOR ZAHID QARALOV ABOUT ACTUAL PROBLEMS OF UPBRINGING

**Xülasə:** Məqalədə “Tərbiyə” trilogiyasının materialları əsasında professor Zahid Qaralovun tərbiyəyə, onun məzmununa, prinsip və metodlarına, təşkili yollarına dair fikirləri; professorun meydana gətirdiyi “Tərbiyənin sağlam üçlüklər (3+3+3) nəzəriyyəsi” ilə tanış oluruq. I-III cildlərdə əsasən Şərq, o cümlədən Azərbaycan mütəfəkkirlərinin tərbiyəyə dair fikirləri araşdırılır və professor Z.İ. Qaralov tərəfindən təhlil və ümumiləşdirməyə cəlb olunur. Eyni zamanda “Kitabi Dədə-Qorqud”, ”Kəlilə və Dimnə”, ”Oğuznamə” kimi möhtəşəm sənət abidələrindəki fikirlərə münasibət bildirilir.
***Açar sözlər:*** *tərbiyə, tərbiyə nəzəriyyəsi, tərbiyənin sağlam üçlüklər nəzəriyyəsi, milli-mənəvi dəyərlər, tərbiyəvi fikirlər*

**Резюме:** В статье представлены взгляды профессора Захида Гаралова о воспитании, его содержании, принципах и методах организации на основе трилогии «Воспитание», мы знакомимся с «Теорией здоровых троек (3 + 3 + 3)» профессора. В томах I-III в основном исследуются идеи восточных, в том числе азербайджанских мыслителей относительно воспитания, которые подвергаются анализу профессора З.И. Гаралова. В то же время высказываются комментарии к замечательным художественным произведениям, таким как «Китаби Дада-Коркуд», «Калила и Димне» и «Огузнамэ».
***Ключевые слова:*** *воспитание, теория воспитания, теория здоровых троек, национально-духовные ценности, воспитательные идеи*

**Summary:** The article presents the views of Professor Zahid Qaralov on upbringing, its content, principles and methods of organization based on the trilogy "Upbringing"; we get acquainted with professor‘s "Theory of healthy triples (3 + 3 + 3)" . Voljmes I-III are dedicated to ideas of Eastern, including Azerbaijani, thinkers regarding upbringing, which are analyzed by Professor Z.I. Qaralov. At the same time, there are comments on remarkable works of art, such as „Kitabi Dada-Korkud“, „Kalila and Dimna“, and „Oguzname“.
***Keywords:*** *upbringing, theory of upbringing, theory of healthy triples, national and spiritual values, educational ideas*

Azərbaycanda pedaqoji fikrin görkəmli nümayəndələrindən biri də professor Zahid İbrahim oğlu Qaralovdur. Fizikanın tədrisi metodikası üzrə namizədlik və doktorluq dissertasiyaları müdafiə etsə də, həmin ixtisas üzrə kitab və kitabçalar, elmi məqalələr qələmə alsa da, bu sa-

hədə uğurlar qazansa da, Zahid Qaralov tərbiyəşünas alim kimi də özünü təsdiq etmişdir. Onun əsərləri pedaqogikanın, təhsilin, təhsilin idarə edilməsinin, həmçinin milli tərbiyənin bir sıra aktual problemlərinə həsr olunmuşdur.

Bir sıra pedaqoqlar bu fikirdədirlər ki, ayrıca tərbiyə anlayışı yoxdur, o, təhsilin və təlimin tərkibində nəzərdən keçirilməlidir. Professor Zahid Qaralov bu qənaətin düzgün olmadığını sübuta yetirərək üç cildlik "Tərbiyə" trilogiyasını ortaya qoymuşdur. Heç də təsadüfi deyildir ki, "Tərbiyə" kitabının birinci cildinə yazılmış ön sözdə deyilir: "Bu əsərdə biz Zahid müəllimi təkcə nəzəriyyəçi alim, böyük pedaqoji təcrübəsi olan müəllim kimi yox, həm də mövcud pedaqoji nəzəriyyələri və tarixi təcrübələri öz yaradıcılıq süzgəcindən ustalıqla keçirib onlara yeni məna verməyə nail olmuş mütəfəkkir ziyalı kimi görürük"(1,3).

Həmin cilddə "Müəllifdən" sərlövhəli yazıda professor yazırdı: Azərbaycan xalqının tarixində tərbiyə sistemi, tərbiyə nəzəriyyələri azı beş dəfə köklü dəyişikliyə uğramışdır:

Birinci, Tanrıçılıqdan İslam mədəniyyətinə keçid, İslam elminin yaratmağa başladığı və hökmran olduğu dövr( eramızın 650-1820-ci illəri).

İkinci, Rusiya imperiyasının İranla apardığı uzunmüddətli müharibələr nəticəsində Azərbaycanı bir neçə yerə parçalayaraq Şimali Azərbaycanı işğal altına aldığı vaxtdan Sovetlər hakimiyyəti qurulana qədərki dövr (1813-1917- ci illər).

Üçüncü, Azərbaycan Cümhuriyyətinin yarandığı vaxtdan ölkənin təkrarən Rusiya imperiyasının işğalı altına düşdüyü vaxtadək keçən dövr (1918-1920-ci illər).

Dördüncüsü, Sovet imperiyasının hakimiyyəti dövrü (1920- 1991-ci illər).

Beşinci, Azərbaycanın öz müstəqilliyini və suverenliyini bərpa etdiyi son dövr( 1991-ci ildən bəri)" (1, 5).

Diqqətəlayiq haldır ki, professor tərbiyə problemlərini araşdırmağa başlayarkən ilk növbədə tərbiyənin, daha dəqiq desək, milli tərbiyənin inkişaf tarixinə münasibət bildirmişdir.

Professor Z.İ. Qaralova görə, ölkəmizdə tərbiyə nəzəriyyəsinin əsası oğuz "Törə"sinin son dərəcə güclü təsiri ilə meydana gələn "Oğuznamə"lərdən olan "Kitabi Dədə-Qorqud" dastanında qoyulub. Çox diqqətəlayiq qənaətdir. Bizcə, bu fikir ilk dəfə Zahid Qaralov tərəfindən irəli sürülmüşdür.

Trilogiyanın birinci cildi 28 yarımfəsildən ibarətdir. Professor ilk növbədə insanın mahiyyətinə, islam elmində insan amilinə, insan və mənəvi mühit məsələlərinə aydınlıq gətirir. Bu, heç də təsadüfi deyildir. Məlum olduğu kimi, tərbiyə ictimai hadisədir və canlılardan yalnız insan nəslinə aiddir. Ona görə də, təbii ki, əvvəlcə insanın mahiyyəti barədə təsəvvür yaradılmalıdır. Əvvəlcə - insan, sonra onun tərbiyəsi.

Odur ki, yuxarıdakı məsələlər(insanın mahiyyəti, islam elmində insan amili, insan və mənəvi mühit)aydınlaşdırıldıqdan sonra professor tərbiyə anlayışının üzərində dayanır.

Zahid Qaralovun düzgün qənaətinə görə, "İslam elmi Azərbaycan xalqının milli-mənəvi dəyərləri ilə qaynayıb-qarışdı, ümumbəşəri dəyərlər səviyyəsinə yüksəldi. Nəsillərin tərbiyəsi üçün dəyərli sistem yarandı."(1,7).

Biz yuxarıda professor tərəfindən müəyyənləşdirilmiş Azərbaycanda tərbiyə nəzəriyyələrində, tərbiyə sistemində baş verən dəyişiklikləri əks etdirən 5 dövrləşməni diqqət mərkəzinə gətirdik. İkinci dövrləşdirmədən danışarkən "Tərbiyə" kitabında oxuyuruq: "Rusiyada imperiya təfəkkürünü formalaşdırıb başa çatdıran və özünün məşhur vəsiyyətnaməsi ilə bu təfəkkürün gələcək hədəflərini göstərən Dəli Petronun "parçala və hökmranlıq et!" siyasətinin Qafqazda, Orta Asiyada, bütövlükdə Şərq dünyasında dönmədən vəhşi üsullarla həyata keçirilməsi Azərbaycan xalqını da böyük fəlakətlərə düçar etdi. Son dörd yüz ildə Qafqaz xalqlarına qarşı ermənilərin fəal iştirakı ilə gah qaynar, gah soyuq müharibələr aparmaqla, Rusiya milli- mənəvi dəyərlərimizə, tərbiyə sistemimizə çox böyük zərər yetirmişdir." (1,7).

Professor ruslaşdırma siyasətini xüsusilə təhlükəli sayırdı. Həmin məsələ ilə bağlı yazır: "Azərbaycanda ardıcıl həyata keçirilən ruslaşdırma siyasəti, milli mədəniyyəti rus mədəniyyəti ilə əvəz etmək cəhdləri tərbiyə sistemini də güclü deformasiyaya uğratdı. Əsrlər boyu formalaşmış nizam pozuldu, milli-mənəvi dəyərlərin bir çoxuna yararsız əlavələr edildi" (1, 7).

Professor sözlərində haqlıdır. SSRİ-yə daxil olduğumuz illərdə təhsil müəssisələrində tədris olunan "SSRİ tarixi" adlansa da əslində məz-

mununa Rusiyanın tarixinə aid materiallar Salınır, Rusiyanın tarixi keçilirdi.

İttifaqa daxil olan xalqların öz millətlərindən məhrum olması, pasportlarında azərbaycanlı, özbək, gürcü, belorus, ukraynalı əvəzinə sovet vətəndaşı yazılması planlaşdırılırdı. Sovet adamı formalaşdırılırdı.

Professor Z.İ. Qaralov bütün bu məsələlərə tərbiyə sistemimizin üzləşdiyi çətinliklərə aydınlıq gətirməklə yanaşı müasir dövrdə - müstəqillik illərimizdə tərbiyə sistemimizin və tərbiyə nəzəriyyəmizin necə inkişaf edərək formalaşdığını, milli-mənəvi, dəyərlər, azərbaycançılıq, vətənpərvərlik, dövlətçiliyimizə sədaqət ruhunda gənc nəslin necə uğurla tərbiyələndiyini göstərir.

Professor tərbiyə anlayışının mahiyyətinin açır. Məlum olduğu kimi, pedaqoji ədəbiyyatda, pedaqoji lüğət və ensiklopediyada, ”Pedaqogika” dərsliklərində tərbiyəyə çox müxtəlif təriflər verilib. Z.İ. Qaralovun məsələyə yanaşma tərzi belədir: “Tərbiyə - dinamik proses olmaqla bərabər, eyni zamanda idarə edilən mürəkkəb sistemdir. Bu sistemdə daimi təsir göstərən və dəyişən elementlər var. Hər elementin təsir gücünü tənzimləyən müvafiq amillər qrupu mövcuddur. Bunları nəzərə almadan sistemin hərəkətini düzgün idarə etmək mümkün deyil” (1, 28).

Professor tərbiyə işlərini düzgün qurmaq üçün insanı öyrənməyi vacib sayır. İnsanı öyrənmək üçün təklif edir ki, hər şeydən əvvəl onun mahiyyəti, keyfiyyəti aşkarlanmalıdır.

Z.İ. Qaralov insanı öyrənməyin konkret sxeminə münasibət bildirir. Həmin sxemə daxildir: sifətlərdən - əməllərə - mahiyyətə - keyfiyyətə.

Professorun diqqət yetirdiyi məsələlərdən biri də insanın əməlləri məsələsidir. O, təzahür formasına görə insan əməllərini 3 yerə ayırır: a) açıq-aşkar; b) yarıgizli-yarıaşkar; c) tamam gizli.

Bu təsnifatı apardıqdan sonra nəticə çıxarır: “təkcə açıq-aşkar və yarıgizli-yarıaşkar əməllərin müşahidəsinə əsasən insana verilən qiymət tam ola bilməz. Gizli əməlləri də öyrənib təhlil etmək gərəkdir. Yalnız bu zaman insanın tam mahiyyətini üzə çıxarmaq, qiymətləndirmək mümkün olur.”(1, 29-30).

Professorun qənaətləri ilə şərikik.

Z.İ. Qaralov şəxsiyyətin irəli getməsini şərtləndirən amillərə də münasibət bildirmişdir. Bu xüsusda üç istiqamət diqqət mərkəzinə gətirilir:

“Birincisi, insan daha aşağı mədəniyyət (geniş mənada) səviyyəsindən daha yüksək mədəniyyət səviyyəsinə doğru irəliləməklə davam edir.

İkincisi, insan daha aşağı intellektual potensial səviyyəsindən daha yüksək intellektual potensial səviyyəsinə yüksəlməkdə davam edir.

Üçüncüsü, insan özünü və ətraf aləmi, o cümlədən təbiəti daha dərindən dərk etməyə doğru irəliləyir.”(1, 32-33).

Yuxarıda diqqət mərkəzinə gətirilən qanunauyğunluqlar son dərəcə önəmlidir və insan-təbiət-cəmiyyət qarşılıqlı təsiri ilə səsləşir.

Professor Z.İ. Qaralov müqəddəs kitabları, “Kitabi-Dədə Qorqud”u, dahilərin əsərlərini araşdıraraq, Azərbaycan mütəfəkkirlərinin tərbiyə nəzəriyyələrində aşağıdakı müddəaların önə çəkildiyini müəyyənləşdirmişdir: “1. İnsan təbiəti ziddiyyətlidir. 2. İnsanı əhatə edən mühit pisliklərlə yaxşılıqların mübarizəsi meydanı olduğundan insan mənəviyyatı və davranışı da daim bu mübarizənin təsiri altındadır. 3. İnsan daim psixoloji inkişafdadır. Yaxşı təsirlər vasitəsilə bu prosesi dəyişmək, saflaşdırmaq olar. 4. Bütün insanların pisliklərdən qaytarılmağa (saf tərbiyəyə) ehtiyacı var. 5. İnsanların pisliklərdən qayıtması (saf tərbiyəsi) mümkündür və vacibdir” (1, 34).

Z.İ. Qaralovun “Tərbiyə” kitabında diqqət yetirdiyi məsələlərdən biri də “şəxsiyyətə verilən əsas tələblər”dir. Professor hər bir şəxsdən ötrü arzu olunan keyfiyyətlərə aşağıdakıları aid edir: özünüdərk, məxsus olduğu ailəyə, nəslə, millətə, xalqa sədaqət, millətlərarası münasibətlərdə saflıq və reallıq; yurd-yuvaya, el- obaya, vətənə, torpağa məhəbbət və hörmət; millətin, vətənin maddi və mənəvi sərvətlərinin müqəddəsliyinə inam və onları zənginləşdirməyə xidmət; halal əmək; xeyirlə şərin, işıqla qaranlığın qoşa qanad kimi yanaşı getdiyi dünyada ömrünü ancaq xeyirin və işığın qələbəsinə nail olmağa həsr etmək və s.” (1, 78).

“Tərbiyə” trilogiyasının birinci cildinin yarımfəsillərindən biri” Təhsil-insan-cəmiyyət münasibətlərini elmi əsasda qurmağın yolları haqqında” adlanır. Bu yarımfəsildə insanın cəmiyyətin ictimai inkişafın mərkəzinə gətirilməsinin 22 şərti üzərində dayanılır. Onlardan bəzilərini yada salaq: “- insana layiqli həyat və əmək şəraiti yaratmaq; tibbi xidmətin yaxşılaşdırılması; təbii yaşayış mühitini saxlamaq hüququndan

istifadə etmək; təbii ehtiyatlardan səmərəli istifadə; ehtiyacı olanların yardım alması; uşaqlara qayğı göstərilməsi; əlillərə, yetimlərə, qocalara, çoxuşaqlı ailələrə yardımın təşkil edilməsi; milli və etnik ayrı-seçkiliyə, inama görə insanların fərqləndirilməsinə yol verməmək; ailənin daxili işlərinə qarısmamaq və s." (1, 102)

Trilogiyanın I cildində "İnsan və onun tərbiyəsi probleminə yanaşmalar", "İslam aləmində tərbiyə problemi", "Nizami Gəncəvinin elmi-pedaqoji irsində insan və tərbiyə problemləri", "Dövlətin siyasəti və tərbiyə proqramları arasında əlaqə", "Təlim, tərbiyə və inkişafın vəhdəti", "Elm, din və əxlaqın vəhdəti", "Cəmiyyətdə davranış normaları haqqında", "Təlim-tərbiyə işinin intensivləşdirilməsi məsələləri", "Yunis Əmrədə tərbiyəyə münasibət" "Şota Rustavelinin "Pələng dərisi geymiş pəhləvan" əsərində insan və tərbiyə probleminin həlli" və s. yarımfəsilləri özünə yer almışdır.

Cildin "Cəmiyyətdə davranış normaları haqqında" adlanan 18-ci yarımfəsli əhatəliliyinə görə fərqlənir. Bu yarımfəsildə tərbiyənin ayrı-ayrı növlərinin (ədalət tərbiyəsi, doğruçuluq tərbiyəsi, inam tərbiyəsi, haqq iş görmək tərbiyəsi, ağıllılıq və zəkalılıq tərbiyəsi, sağlamlıq tərbiyəsi, mübarizlik ruhunda tərbiyə, qənaətcillik tərbiyəsi, azərbaycançılıq tərbiyəsi, səxavətlik tərbiyəsi, ekologiya tərbiyəsi və s.) üzərində dayanılır, onlara tərif verilir, mahiyyəti, məzmunu aydınlaşdırılır.

Trilogiyanın II cildi "Tərbiyənin məzmunu", "Tərbiyənin metodları və prinsipləri", yarımfəsilləri ilə açılır. Professor Z.İ. Qaralov şərqin şifahi və yazılı abidələrinə, mütəfəkkirlərin fikirlərinə əsaslanaraq, tərbiyənin məzmunu, metodları və prinsiplərini nəzərdən keçirir, ümumiləşdirmələr aparır. Diqqət yetirək: "Tarixi abidələrdə, müxtəlif millətlərin təcrübəsində sınanmış daha geniş ölçüdə tərbiyə metodlarının sistemi vardır. Buraya daxildir: pis əməllərdən çəkindirmək; cəhənnəm əzabı ilə qorxutmaq, ölümlə hədələmək; öyüd-nəsihət vermək; yaxşı və pis əməlləri tərəzidə çəkmək; ibadət və itaət etmək; əzab vermək; qadağalar qoymaq; doğru yola yönəltmək; tövbə etmək; bağışlamaq və s." (2, 17).

Cildin digər yarımfəsilləri aşağıdakı kimi adlandırılmışdır: "Qurani- Kərimdə əxlaqi təlimin məzmunu və metodikası", "Nizami Gəncəvinin tərbiyə nəzəriyyəsində əxlaq təliminin yeri", "N. Tusinin tərbiyə nəzəriyyəsində əxlaq məsələlərinin qoyuluşu", "Kəlilə və Dimnə" də tərbiyənin məzmunu məsələlərinin qoyuluşu və metodikası", Füzuli yaradıcılığında insan tərbiyəsinin qoyuluşu", "Peyğəmbərlərin həyatına aid hekayələrdən( qissələrdən) seçmələr", "Əssar Təbrizinin tərbiyə probleminə yanaşma metodikası", "Oğuz nəsihət və vəsiyyətləri" və s.

"Tərbiyə" trilogiyasının 3-cü cildi "Əmir Teymurun vəsiyyətlərində tərbiyə məsələlərinin qoyuluşu" adlanır. Professor Z.İ. Qaralov daha sonra aşağıdakı yarımfəsillərdə tərbiyə məsələlərinin qoyuluşunu öyrənərək təhlil edir: "Şəriət"də tərbiyə məsələləri", "Əbu Əli İbn Sinanın yaradıcılığında tərbiyə probleminin həlli", "Sədi Şirazinin əsərlərində tərbiyə məsələlərinin qoyuluşu və həlli yolları" və s.

Cilddəki digər yarımfəsillər belə adlanır: 1. Dialoq və diskussiya metodları barədə. 2. Tərbiyənin sağlam üçlükləri (3+3+3) nəzəriyyəsi", 3. Hikmət hikmətdən yaranır.

Tərbiyənin sağlam üçlükləri(3+3+3) nəzəriyyəsi" yarımfəslində professor göstərir ki, trilogiyada nəzərdən keçirdiyi məsələləri araşdırarkən 3 səviyyədə ümumiləşdirmə aparmışdır:

"I səviyyə. Eyni sahəyə aid tərbiyə hadisələri arasındakı qarşılıqlı əlaqələrdən alınan ümumiləşdirmələr.

II səviyyə. Tərbiyə anlayışları arasındakı qarşılıqlı əlaqələrdən alınan ümumiləşdirmələr.

III səviyyə. Eyni sahələr üzrə tərbiyə qanunları (qanunauyğunluqları və prinsipləri) arasındakı qarşılıqlı əlaqələrdən alınan ümumiləşdirmələr" (3, 139).

I səviyyə ilə bağlı aparılan ümumiləşdirmələr professora tərbiyə sahəsində yeni anlayışların pedaqogika elminə gətirilməsinə, mövcud anlayışların isə təkmilləşdirilməsinə; II səviyyə üzrə ümumiləşdirmələr yeni tərbiyə qanunlarının aşkarlanmasına, eyni zamanda mövcud qanunlardan bir qisminin dəqiqləşdirilməsinə imkan vermişdir.

Professor Z.İ. Qaralovun qənaətincə, üçüncü səviyyədə həyata keçirilən ümumiləşdirmələrə əsasən, yeni tərbiyə nəzəriyyəsi formalaşdırıldı. Professor həmin nəzəriyyəni "sağlam üçlüklər"(3+3+3) nəzəriyyəsi adlandırmışdır.

Professor Z.İ. Qaralovun düzgün nöqteyinəzərincə, **birinci üçlük** tərbiyənin başlıca mən-

bələri sayılan ailə, məktəb və ictimaiyyətin əlbir fəaliyyətini, **ikinci üçlük** tərbiyənin məzmununu özündə birləşdirən milli - mənəvi, ümumbəşəri və dini mədəniyyətlərin inteqrasiyasını, **üçüncü üçlük** tərbiyənin metodologiya və texnologiyalarını, hərəkətverici qüvvələrini əhatə edən insan-təbiət-cəmiyyət qarşılıqlı münasibət və təsir mədəniyyətlərinin cəmini nəzərdə tutur.

Bütün deyilənləri əsas götürərək, professor Z.İ. Qaralov tərbiyənin sağlam üçlüklər (3+3+3) nəzəriyyəsinə aşağıdakı tərifi verir: "Kamil insan, sağlam ailə və cəmiyyət yalnız mənbəyi ailə-məktəb-ictimaiyyət əlbirliyindən, məzmunu milli-mənəvi, ümumbəşəri və dünyəvi dini mədəniyyət nümunələrinin cəmindən, metodologiya və texnologiyaları çoxtərəfli insan-təbiət-cəmiyyət qarşılıqlı münasibətlər mədəniyyətindən yaranan tərbiyə sistemləri əsasında yetişə bilər" (3, 140).

Deyilənləri ümumiləşdirərək belə qənaətə gələ bilərik ki, professor Zahid Qaralovun yaradıcılığında tərbiyənin son dərəcə aktual problemləri öz əksini tapmışdır. Professor Şərqin, o cümlədən Azərbaycanın şifahi və yazılı sənət abidələrini mütəfəkkirlərin fikirlərini bir araya gətirmiş, sistemləşdirmiş, "Tərbiyənin sağlam üçlüklər nəzəriyyəsi"ni meydana gətirərək, pedaqogika elmini, tərbiyə nəzəriyyəsini zənginləşdirmişdir.

**Problemin aktuallığı.** Məqalədə Şərqin, o cümlədən Azərbaycanın şifahi və yazılı abidələrində tərbiyə məsələləri araşdırılır və ümumiləşdirilir.

**Problemin yeniliyi.** Tərbiyədə sağlam üçlüklər nəzəriyyəsi (3+3+3) pedaqogika elmində yeni nəzəriyyə kimi diqqət mərkəzinə gətirilir.

**Problemin praktik əhəmiyyəti.** Məqalə tərbiyə problemləri üzrə tədqiqat aparan magistrant, doktorant və dissertantlar pedaqoqlar üçün maraq doğuracaqdır.

**Ədəbiyyat:**


1. Qaralov Z.İ. Tərbiyə (prinsiplər, məzmun, metodika, hüquq). 3 cilddə, 1-ci cild. Bakı: Pedaqogika, 2003.
2. Qaralov Z.İ. Tərbiyə (prinsiplər, məzmun, metodika, hüquq). 3 cilddə, 2-ci cild. Bakı: Pedaqogika, 2003.
3. Qaralov Z.İ. Tərbiyə (prinsiplər, məzmun, metodika, hüquq). 3 cilddə, 3-cü cild. Bakı: Pedaqogika, 2003.


**E-mail**: amiraliyeva_i@mail.ru
**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* A.N. Abbasov,
*ped.ü.fəls.dok.* L.A. Məmmədli
**Redaksiyaya daxil olub:** 03.10.2018